# Görkəmli şair Hüseyn Kürdoğluya həsr edilmiş kitabın təqdimatı olub






Oktyabrın 30-da Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalında görkəmli şair Hüseyn Kürdoğlunun xatirəsinə həsr olunmuş "Silinməz sözdən izim" adlı kitabın təqdimatı oldu. Tədbiri Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev açaraq "ədəbiyyata XX əsrin əllinci illərində gələn və öz ömrünü dəmadəm sözə verən" Hüseyn Kürdoğlunun zəngin və çoxşaxəli yaradıcılığı barədə ətraflı danışdı.

Dedi ki, illər ötsə də, Hüseyn Kürdoğlu yaradıcılığına oxucu marağının daha da artdığını gördükcə sevinirəm: "Kaş əziz dostum, Hüseynin və mənim əziz qardaşımız, böyük alim Şirindil Alışanlı sağ olaydı, Hüseyn müəllimlə bağlı bu tədbirin necə bir dərin ehtiramla keçirildiyinin şahidi olaydı... Hüseyn Kürdoğlu bənzərsiz şair idi. Əsərlərindən ana təbiətin ətri gəlirdi. O, əsl rəssam kimi Azərbaycan gözəlliklərini poeziyaya, misralara həkk edib. Hüseynin ana təbiətə olan sevgisi oxucu qəlbinə sirayət edir, təbiəti insana doğmalaşdırır, sevdirir və bu səbəbdən, özü də bir şair olaraq sevilir. Hüseyn Kürdoğlu poeziyası folklorla, xalq yaradıcılığıyla sıx bağlıdır. O, yeganə şairdir ki, bayatı janrı əsasında bütöv poema yazıb, Aşıq Ələsgər, Aşıq Şəmşir və Səməd Vurğun ədəbi ənənələrini bir məcrada şeirə gətirib... Onun sözü dən bağlayan sünbül kimidi".

Professor Rafiq Yusifoğlu çıxış edərək qeyd etdi ki, Hüseyn Kürdoğlunun kimliyini onun özü qədər yaxından bilən ikinci bir adam təsəvvür etmək çətindir: "Onun kimliyi, duyğu və düşüncələri, həzz və iztirabları, poetik yaşantıları şeirlərinə, nəğmələrinə, poemalarına, tədqiqat əsərlərinə hopub. Hüseynin poetik bioqrafiyası gözündən ovcunda su içdiyi, üstündə alışıb-yandığı bulaqlardan, Laçın dağlarının gözəlliklərindən başlayır.

Hüseynin əksər şeirləri özünün avtoportretləri kimi yaddaşa, göz önünə gəlir. Həmin şeirləri oxuduqca "oylağı Qarabağ, yuvası Qarabağ" olan şairin könül çırpıntılarını eşidirik. Onun əsərlərinin lirik qəhrəmanı küll halında "Həsrəti Savalan, nəğməsi Araz olan böyük bir torpağın hicran"nı yaşayan vətəndaş-şair obrazıdır. Teztez bəstəkar-müğənni Qulu Əsgərovun Hüseyn müəllimin sözlərinə bəstələdiyi və ifa etdiyi nəğmələri dinləyirik. İndi hər ikisi haqq dünyasındadır. O mahnıları dinlədikcə, o şeirləri yada saldıqca təsəlli tapırıq ki, insan bu dünyadan köç etsə də, sözü qalır, səsi qalır, onu vətən sevir, el anır".

Mətbuat Şurasının sədri, AYB-nin sədr müavini Rəşad Məcid ustad şairi xoş duyğularla yad etdi: "Burada təqdim edilən kitabla tanış olduqca çox mətləblərdən hali oldum. Hüseyn müəllimin şeirlərini hələ lap gənclik illərimdə Aqil Abbasın dilindən eşitmişəm. Aqil böyük bir şövq və sevgiylə onun şeirlərini əzbərdən söyləyərdi. O şeirlərdə Azərbaycan təbiətinin gözəllikləri doyumsuz bir sevgiylə tərənnüm olunub, Laçının, eləcə də Əhmədli kəndinin poetik rəsmi cizgilənib. Kaş Hüseyn müəllim sağ olaydı, Zəfər günümüzü görəydi, yenidən tərənnüm edəydi azad yurd yerlərimizi..."

Professor Sara Osmanlı çıxışında ədəbiyyatşünas alim Qəzənfər Paşayevin "Hüseyn Kürdoğlunun poetik dünyası" kitabının illər öncəsi Yazıçılar Birliyində keçirilən təqdimat mərasimini xatırlatdı. Həmin təqdimat mərasimində akademiklər Teymur Bünyadovun, Nizami Cəfərovun, Xalq şairi Nəriman Həsənzadənin, tənqidçi Qurban Bayramovun, teatrşünas İlham Rəhimlinin və başqalarının söylədikləri dəyərli fikirlərdən örnəklər gətirdi. Eyni zamanda H.Kürdoğlu poeziyasının,´ şəxsiyyətinin bənzərsiz yönlərindən söz açdı.

Şair Musa Ələkbərli təqdim olunan kitabdan ədəbi və əbədi abidə kimi bəhs etdi, yeni nəşri Hüseyn Kürdoğlusevənlərin üz tutacaqları qutsal dünya kimi dəyərləndirdi.

Ədəbiyyatşünas Günay Qarayeva dedi: "Artıq 21 ildi ki, ustad şair aramızda yoxdur. Aradan keçən bu iyirmi bir ildə çox şey dəyişib, amma ədəbi mühitin, poeziyasevərlərin Hüseyn Kürdoğlu yaradıcılığına olan sevgisi bir zərrə də olsun azalmayıb. Hüseyn Kürdoğlu poeziyaya təbiətdən, təbiətə olan sevgidən gəlmişdi. Tarix-təbiət-folklor və şair-vətəndaş xətti onun yaradıcılığının başlıca atributlarıydı..."

Şair-publisist Əli Rza Xələfli dedi: "Populist "Vətənə qurban olum" sözlərinin əvəzində canını vətən torpağına, suyuna, ruhunu vətən havasına qatan Hüseyn Kürdoğlunun özü də bir dünyaydı məndən ötrü. Onun poeziyasında təbiətin harmoniyası vardı. Nəhəng, əzəmətli uvertüra sədası vardı. Hüseyn Kürdoğlu bizim dağlara, bizim bağlara, bizim sulara, bizim çinarlara çox bənzəyirdi. Boyumuza biçilən dərdləri yazırdı... Sözün boynumuzda böyük haqqı var. O sözün ki, onun əbədi ünvanlarından biri də Hüseyn Kürdoğlu yaradıcılığıdır. Hüseyn Kürdoğlu taleyini özü yazmış obraz idi. Hüseyn özünün ruh babası Füzuliyanə ağrımaları ilə ruhları təzələyən poetik örnəklər yaratdı, sözə yeni məna donu biçməyi bacardı..."

Ədəbiyyatşünas alim Esmira Fuad unudulmaz sənətkardan Laçın aşiqi, Laçın divanəsi kimi bəhs etdi: "Onun yaradıcılığında doğulub boya-başa çatdığı torpağın, əsrarəngiz, saf təbiətin möhtəşəm obrazı cizgilənib. Hüseyn müəllimin bu möhtəşəm təbiətə olan heyranlığının poetik ifadəsi olduqca mükəmməl və yaddaqalandır..."

"Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə dedi: "Mən bu məclisə çox həvəslə gəldim. Ona görə ki, necə bir böyük şairdən söz açıldığını yaxşı bilirəm. Şairin şeirləri onun özü haqqında daha çox söz deyir, nəinki o şeirləri incələmək istəyənlər... Mən bu məclisə Hüseyn Kürdoğlunun öz şeirlərindən bir çələng gətirmək, burada diqqətə çatdırmaq istərdim. Heyif ki, yaş ötdüyündən yaddaşım buna imkan vermir... Hüseyn Kürdoğlu mənim sevdiyim, mənim gördüyüm və könül verdiyim təbiətin, unudulmaz oymaqların tərənnümçüsü, şairi idi..."

Ədəbiyyatşünas alim, şair Adil Cəmil dedi: "Hüseyn Kürdoğlu öz coşqun ilhamı, qaynar təbi, poetik istedadı, hərtərəfli dünyagörüşü, büllur şəxsiyyəti ilə Azərbaycan poeziyasında xüsusi yer tutan qüdrətli söz sənətkarlarımızdandır. Onun doğulub ərsəyə yetdiyi mühit Sarı Aşığın mühiti idi, bayatı mühiti idi. Xalq ruhunun ilkin daşıyıcıları olan bayatılarımız Sarı Aşığın dilində yeni bir zirvəyə qalxdığı kimi, Hüseyn Kürdoğlunun yaradıcılığında özünün çağdaş biçimini tapdı. Şeirimizin bütün formalarında dəyərli sənət nümunələri yaradan Hüseyn Kürdoğlu bayatını və cinaslı dördlüyü ədəbi gündəmə gətirməklə çox dərin qatlardan qaynaqlanan xalq şeirinə yeni ruh, yeni nəfəs verdi..."

Professor Yaşar Qasımbəyli qeyd etdi ki, Hüseyn Kürdoğlu əbədiyaşar şeirləri ilə özünün və yaşıdlarının yeni mənəvi-estetik konsepsiyalarını, vətənə münasibətlərini və vətəndaşlıq görüşünü son dərəcə emosional tərzdə, təkrarsız bir üslubda və ilhamla ifadə etmişdir.

Professor Məhərrəm Qasımlı ustad sənətkarla bağlı xatirələrini dilə gətirdi, eyni zamanda unudulmaz Şirindil Alışanlının yaxşılıqlarını xatırladı: "Yaxşılıq, xeyirxahlıq duyğusu bu nəslin təbiətində, ruhundaydı. Onlar dünyaya yaxşılıq etmək üçün gəlmişdilər. Bizlər o yaxşılıq işığına böyüyüb boy atdıq. Xatırlamaq boynumuzun borcudur..."

Görkəmli tənqidçi Vaqif Yusifli Hüseyn Kürdoğludan "hamımızın ürəyində yaşayan böyük bir şair, bənzərsiz şəxsiyyət" - deyə bəhs etdi. Ədəbiyyatşünas alimlərdən İlham Məmmədli, Asif Rüstəmli, Güllü Yoloğlu, Razi Məmmədli, Mehman Həsənli, şair-publisist Sərvaz Hüseynoğlu və başqaları da H.Kürdoğlunun bənzərsiz yaradıcılığından səmimiyyətlə söz açdılar.

Sonda şairin oğlu İlham Alışanlı ailələri adından başda AMEA-nın prezidenti İsa Həbibbəyli və professor Qəzənfər Paşayev olmaqla, atasının xatirəsinə olan sayğılarına görə hər kəsə dərin minnətdarlığını bildirdi. Təəssüf etdi ki, amansız ölüm təqdim edilən kitabın tərtibçilərindən biri olan əmisi, görkəmli ədəbiyyatşünas alim Şirindil Alışanlının bu mərasimdə iştirak etməsinə imkan vermədi: "Amma inanıram ki, həm atamın, həm də Şirindil müəllimin ruhu burada, bizimlə bir yerdədi. Məmnundular. Və həmişə də belə olacaq..."

**SƏRVAZ**